DOI: https://doi.org/10.36719/2706-6185/25/30-34

**Fidan Abdullayeva**
Bakı Dövlət Universiteti
doktorant
fidanazmammadova@gmail.com

# UŞAQ HÜQUQLARINDAN BİRİ KİMİ TƏHSİL HÜQUQUNUN ƏHƏMİYYƏTİ

**Xülasə**

Məqalədə uşaq hüquqlarından biri kimi təhsil hüququ və onun əhəmiyyəti qeyd olunmuşdur. Gələcəkdə qərar verə bilmək və özünü ifadə edə bilmə bacarıqlarına nail olmaq üçün təhsilin rolu böyükdür. Dövlətlərin və beynəlxalq təşkilatların qanunvericilik sənədlərində bu hüquq və buna nail olmağın yolları xüsusilə vurğulanmışdır. İnsanın savadı, biliyi onun gələcək həyatını müəyyən edir, ölkənin hərtərəfli inkişafına xidmət edir. Azərbaycanda uşaqların təhsilə cəlb olunması ciddi yerinə yetirilən siyasətlərdəndir. Sağlamlıq imkanları məhdud olan şəxslərin də təhsilə cəlb olunması hər bir dövlətin başlıca prioritetlərindən olmalıdır. Bu məqalədə uşaq hüquqlarından biri kimi təhsil hüququnun təmin olunması ilə bağlı həm milli həm də beynəlxalq qanunvericiliklərə istinadlar olunmuşdur.Əsas məqsəd isə təhsil hüququnun gələcək nəsillərin formalaşmasında başlıca amil olması ilə bağlıdır.

Məqalənin yazılmasında müxtəlif elmi resurslardan istifadə olunmuşdur.

***Açar sözlər:*** *uşaq hüquqları, təhsil qanunları, milli qanunvericilik, beynəlxalq konvensiyalar, əsas insan hüquqları, təhsil hüququ, davamlı inkişaf*

**Fidan Abdullayeva**
Baku State University
PhD student
fidanazmammadova@gmail.com

## Importance of right to education as one of the rights of children

**Abstract**

The article mentions the right to education as one of the children's rights and its importance. Education plays an important role in achieving future decision-making and self-expression skills. This right and ways to achieve it are especially emphasized in the legislative documents of states and international organizations. A person's education and knowledge determines his future life and serves the comprehensive development of the country. Involvement of children in education is one of the strictly implemented policies in Azerbaijan. Involvement of people with limited health opportunities in education should be one of the main priorities of every state. This article refers to both national and international legislation regarding the provision of the right to education as one of the children's rights. The main goal is that the right to education is the main factor in the formation of future generations.

Various scientific resources were used in writing the article.

***Keywords:*** *children's rights, education laws, national legislation, international legislation, basic human rights, education rights, sustainable development*

## Giriş

Hər bir insan doğulduğu andan toxunulmaz olan bir sıra hüquq və azadlıqlara malikdir. Bu hüquqların təmin olunması üçün əsrlər boyu dövlətlər tərəfindən müxtəlif addımlar atılmış, onun inkişafına nail olmağa çalışılmışdır. Vətəndaş cəmiyyətinin güclü formalaşması üçün savadlı nəsillərin yetişdirilməsi ən mühüm amil olmuşdur. Özünü ifadə bacarığının realizə olunması üçün təhsil əvəzsiz bir açardır. İstər milli qanunvericilik aktlarında, istərsə də beynəlxalq konvensiyalarda

təhsil hüququ və bu hüququnun təmin olunması üçün atılmalı olan addımlar öz əksini tapmışdır. BMT-nin iqtisadi, sosial və mədəni hüquqlar komitəsi təhsil hüququnun dörd əsas xarakteristikasını müəyyən edir: mövcudluq, əlçatanlıq (ayrı-seçkiliyə yol verilməməsi, fiziki və iqtisadi əlçatanlıq), təhsilin məqbulluğu və uyğunlaşması siyasətidir.

Ölkəmizdə olduğu kimi dünyada da təhsil hüququnun təmin olunması erkən yaşlardan yəni, uşaqlıq dövründən başlayır və "ömürboyu təhsil" şüarı altında davam etdirilir. Buna əsasən, ilk öncə uşaq anlayışına aydınlıq gətirmək lazımdır. Uşaq hüquqları haqqında Konvensiya Birləşmiş Millətlər Təşkilatının (bundan sonra BMT) 44-cü sessiyasında 20 noyabr 1989-cu il tarixində qəbul edilmişdir və 2 sentyabr 1990-cı il tarixindən qüvvəyə minmişdir. Konvensiyanın 1. Maddəsində göstərilmişdir ki, hər bir insan 18 yaşına çatanadək bu Konvensiyanın məqsədləri üçün uşaq sayılır, bir şərtlə ki, həmin uşaq barəsində tətbiq edilən qanuna görə o, yetkinlik yaşına daha əvvəl çatmış olmasın (1). Beynəlxalq konvensiyanın iştirakçısı olan dövlətlər BMT-nin Nizamnaməsində bəyan edilmiş prinsiplərə uyğun olaraq, cəmiyyətin bütün üzvlərinin ləyaqətinin, bərabər və ayrılmaz hüquqlarının tanınmasının Yer üzündə azadlığın, ədalətin və sülhün təmin olunmasında əsas hesab edirlər. Buna əsasən, cəmiyyətin əsas özəyi və ailənin bütün üzvlərinin, xüsusən uşaqların inkişafı və rifahı üçün əsas təbii mühit kimi ailənin cəmiyyət çərçivəsində vəzifələrini tam həcmdə öz üzərinə götürə bilməsi üçün onun müdafiə edilməsinin və dəstəklənməsinin zəruriliyinə əminlik ifadə etmişlər. Dünyanın bütün ölkələrində son dərəcə çətin şəraitdə yaşayan uşaqların olduğunu və belə uşaqların xüsusi diqqətə möhtac olduğunu qeyd edərək hər bir uşağın məhdudiyyətlə üzləşmədən hüquqlarının təmin olunmasının vacibliyi qeyd olunmuşdur. Bu Konvensiyalar hər bir ölkədə, xüsusən də inkişaf etməkdə olan dövlətlərdə uşaqların həyat şəraitinin yaxşılaşdırılması üçün beynəlxalq əməkdaşlığın vacibliyi təsdiq etmişdir (2).

Dünyada əsas 8 hüquq tanınmışdır ki, bunlar yaşamaq hüququ, təhsil hüququ, qidalanmaq hüququ, sağlamlıq hüququ, su ilə təmin olunma hüququ, toxunulmazlıq hüququ, azadlıq hüququ, müdafiə hüququdur.

Təhsil hüququ sosial hüquq normaları arasında başlıca yerə sahibdir. Uşaq hüquqları haqqında konvensiyada bu hüquq 28- ci maddədə göstərilmişdir. Maddəyə əsasən, iştirakçı dövlətlər uşağın təhsil hüququnu tanıyır və bərabər imkanlar əsasında bu hüququn həyata keçirilməsinə tədricən nail olmaq məqsədilə dövlətlər pulsuz və icbari ibtidai təhsili tətbiq edirlər. Üzv dövlətlər orta təhsilin istər ümumi, istərsə də peşə təhsili kimi müxtəlif formalarının inkişaf etdirilməsini həvəsləndirməli bu təhsilin bütün uşaqlar üçün mümkün olmasını təmin etməli və pulsuz təhsilin tətbiqi və lazım gəldikdə maliyyə yardımı göstərilməsi kimi zəruri tədbirlər görməlidirlər. Bütün lazımi vasitələrin köməyi ilə ali təhsilin hər kəsin bacarığı əsasında hamı üçün əlçatan olmasını təmin etməlidirlər. Təhsil və peşə hazırlığı sahəsində informasiyanın və materialların bütün uşaqlar üçün müyəssərliyini təmin etmək vəzifəsi də konvensiyaya üvz dövlətlərin üzərinə öhdəlik olaraq qoyulmuşdur. Həmçinin məktəblərdə müntəzəm davamiyyətə kömək göstərilməsi və məktəbi tərk edən şagirdlərin sayının azaldılması üçün tədbirlər görülməsi müddəası da qeyd olunmuşdur (1).

İştirakçı dövlətlər uşağın insan ləyaqətinə hörməti əks etdirən metodların köməyi ilə və bu konvensiyaya müvafiq surətdə məktəb intizamının saxlanmasını təmin etmək üçün bütün lazımi tədbirləri görməlidirlər. İştirakçı dövlətlər bütün dünyada cəhalətin və savadsızlığın ləğvinə kömək göstərilməsi və elmi-texniki biliklərə və təlimin müasir metodlarına yiyələnməyin asanlaşdırılması məqsədilə təhsilə aid məsələlərdə beynəlxalq əməkdaşlığı həvəsləndirir və inkişaf etdirirlər. Bununla əlaqədar, inkişaf etməkdə olan ölkələrin tələbatına xüsusi diqqət yetirilməlidir.

Azərbaycanda uşaqların təhsilə cəlb olunması ciddi yerinə yetirilən siyasətlərdəndir. Müstəqillik əldə olunduqdan sonra sonra atılan ən başlıca addımlardan biri kimi beynəlxalq konvensiyaları və onların protokollarının qəbul edilməsini göstərmək olar. Heydər Əliyev tərəfindən başladılan bu siyasət bugünümüzdə də uğurla davam etdirilir. Müstəqil Azərbaycan Respublikası 1992-ci ildə BMT-nin "Uşaq hüquqları haqqında" konvensiyasına, 2002-ci ildə isə Konvensiyanın əlavə iki protokoluna qoşulmuşdur. 1998-ci ildə BMT-nin "Uşaq hüquqları haqqında" Konvensiyasının hüquqlarını özündə əks etdirən "Uşaq hüquqları haqqında" qanun qəbul edilmişdir.

Uşaqlar barəsində dövlət siyasəti hər bir uşağın zəruri maddi və məişət şəraitində böyüyüb tərbiyə olunmasının, mütərəqqi tələblər əsasında təhsil almasının, layiqli vətəndaş kimi formalaşmasının təmin edilməsinə yönəldilir. Azərbaycan Respublikasının Konstitusiyasına əsasən, uşaq hüquqlarının həyata keçirilməsinə dövlət nəzarət edir. Uşaqların təlim və tərbiyəsi valideynləri və təhsil müəsissələri vasitəsilə aparılır. Bu müddəadan da aydın gönünür ki, uşaqların formalaşmasında valideynləri qədər təhsil müəsissələri də əsaslı rol oynayır. Uşağın cəmiyyətdəki yeri onun aldığı təlim və tərbiyədən birbaşa asılıdır. Uşaqlıq dövrü məhdud zaman kəsiyini əhatə etməsinə baxmayaraq bu dövrdə qazandığı mənəvi dəyərlər və biliklər onu sonrakı illərində şəxsiyyət kimi özünü göstərməsində köməklik edir. "Uşaq hüquqları haqqında" qanunun 22-ci maddəsinə əsasən, hər bir uşağın Azərbaycan Respublikasının təhsil qanunvericiliyinə uyğun olaraq təhsil almaq hüququ vardır. Dövlətin təhsil sistemi uşağın şəxsiyyətinin inkişafına, zəruri bilik və bacarıqları tam həcmdə əldə etməsinə şərait yaratmalıdır. Uşaqların icbari ümumi orta təhsildən yayındırılması qadağandır. Cinsiyyətindən asılı olmayaraq hər bir uşağın təhsilini uğurla davam etdirmək hüququ vardır. Bəzi hallarda və ya bəzi bölgələrdə qız uşaqlarının təhsildən yayındırılması hallarına rast gəlinir. Belə halların qarşısının alınması məqsədilə maarifləndirmə tədbirlərinin həyata keçirilməsi məqsədə müvafiq olardı. Çünki savadlı qadın - ana, müvəfəqqiyyətli kariyera sahibi olmaları, ali təhsil müəssisələrini bitirmələri hər biri üçün cəmiyyətdəki rollarının müəyyənləşdirilməsində xüsusi yerə malikdir. Təsadüfi deyildir ki, bir gün Hacı Zeynalabdin Tağıyevdən niyə oğlanlar üçün deyil, məhz qızlar üçün məktəb açdırırsınız? Bunun hər hansı xüsusi səbəbi var? deyə soruşurlar. O, isə öz cavabı ilə hamını təəccübləndirir. Bir oğlana savad verməklə cəmiyyə savadlı bir şəxs qazandırısınız. Bir qıza təhsil verməklə isə həm təhsilli bir qadın, həm də təhsilli bir ailə qazanacaqsınız. Savadlı anaların isə gələcəkdə düzgün cəmiyyətin qurulmasında əhəmiyyəti böyükdür (2).

Azərbaycan Respublikasının ali qanunvericilik sənədi olan Konstitusiyada təhsil hüququ özünəməxsus yerə malikdir. Konstitusiyada əks olunan 42-ci maddəsinə əsasən, hər bir vətəndaşın təhsil almaq hüququ vardır. Dövlət pulsuz icbari ibtidai ümumi orta təhsil almaq hüququnu təmin edir. Maddi vəziyyətdən asılı olmayaraq istedadlı şəxslərin təhsili davam etdirməsinə dövlət zəmanət verir. Təhsil sisteminin və minimum təhsil standartlarının yüksəldilməsinə dövlət tərəfindən təminat verilir və dünyəvi təhsil standartları ilə uyğunlaşan tədris və metodiki vəsaitlərdən istifadənin genişləndirilməsi hər bir dövlətin başlıca prioriteti olmalıdır (3).

Təhsil sahəsində dövlət siyasətini və tənzimlənməsini, təhsil prosesinə ümumi metodik rəhbərliyi Azərbaycan Respublikasının Təhsil Nazirliyi həyata keçirir.

Təhsil hüququnun müxtəlif formaları mövcuddur və forma şəxslərin fiziki və əqli imkanlarını nəzərə alınmaqla müəyyənləşdirilir. Bu formadan biri xüsusi təhsildir ki, xüsusi şərait yaratmaqla sağlamlıq imkanları məhdud şəxslərin məktəbəqədər, ümumi və peşə təhsili alması anlaşılır. Təhsil sisteminin bütün səviyyələrində, eləcə də erkən yaşlardan başlayaraq bütün uşaqlarda əlilliyi olan şəxslərə hörmət edilməsi istiqamətində tərbiyə edilməsi gərəklidir (4).

Sağlamlıq imkanları məhdud şəxslərin təhsili (xüsusi təhsil) haqqında Azərbaycan Respublikası Qanunu Heydər Əliyev tərəfindən 5 iyun 2001-ci ildə qəbul olunmuşdur. Qanunun inkişaf etdirilməsi və müasir tələbləri cavablandırması məqsədilə ilə müxtəlif illərdə əlavələr və dəyişikliklər edilmişdir.

Sağlamlıq imkanları məhdud şəxslər dedikdə, xüsusi şərait yaradılmadan təhsil almasında çətinliklər yaranan fiziki çatışmazlığı, əqli və (və ya) psixi ləngimələri olan şəxslər başa düşülür.

Sağlamlıq imkanları məhdud şəxslərin valideynləri və ya digər qanuni nümayəndələri onların ümumi təyinatlı təhsil müəssisələrində təhsil almaları üçün qanunvericiliklə müəyyən olunmuş qaydada müvafiq icra hakimiyyəti orqanlarına və təhsil müəssisələrinə müraciət etməyə borcludurlar. Xüsusi təhsilin məqsədi sağlamlıq imkanları məhdud şəxsləri zəruri bilik, bacarıq və vərdişlər aşılmaqla onların cəmiyyətə uyğunlaşmasını, o cümlədən özünəxidmət verdiyinin yaradılmasını, əmək fəaliyyətinə və ailə həyatına hazırlanmasını təmin etməkdən ibarətdir (5).

Azərbaycan Respublikası Birləşmiş Millətlər Təşkilatının Baş Məclisi tərəfindən 2006-cı il dekabrın 13-də qəbul edilmiş «Əlilliyi olan şəxslərin hüquqları haqqında» Konvensiyaya qoşulan

dövlətlərdən biridir. Bu haqda İlham Əliyevin rəhbərliyi ilə 2 oktyabr 2008-ci il tarixində Qanun imzalanmışdır və imzalandığı gündən qüvvəyə minmişdir. Əlilliyi olan uşaqların hüquqi müdafiəsi Konvensiyada xüsusi formada vurğulanmışdır. İştirakçı dövlətlər əlilliyi olan uşaqların digər uşaqlarla bərabər səviyyədə bütün insan hüquqlarını və əsas azadlıqlarını tam həyata keçirməsini təmin etmək üçün bütün zəruri tədbirləri görürlər. Konvensiyanın 24 -cü maddəsi təhsil hüququ məsələsinə toxunmuşdur. İştirakçı dövlətlər əlilliyi olan şəxslərin təhsil almaq hüququnu tanıyırlar. Bu hüququn ayrı-seçkiliyə yol vermədən və imkanların bərabərliyi əsasında həyata keçirilməsi üçün iştirakçı dövlətlər bütün səviyyələrdə əlilliyi olan şəxsin bütün həyatı boyu inklüziv təhsili və təlimi təmin edir və bu zaman aşağıdakılara çalışırlar:

a. insan potensialının, eləcə də ləyaqət və özünə hörmət hisslərinin tam inkişafına, insan hüquqlarına, əsas azadlıqlarına və insan müxtəlifliyinə hörmətin gücləndirilməsinə;

b. əlilliyi olan şəxslərin şəxsiyyətinin, fərdi istedad və yaradıcılığının, habelə onların əqli və fiziki qabiliyyətlərinin tam həcmdə inkişafına;

c. əlilliyi olan şəxslərə azad cəmiyyətin həyatında səmərəli iştirak etmək imkanlarının verilməsinə.

İştirakçı dövlətlər bu hüququn həyata keçirilməsi zamanı aşağıdakıları təmin etməli olduğu bir sıra vəzifələr vardır ki, konvensiyanın müddəalarında öz əksini tapmışdır. Məsələn, əlilliyi olan şəxslər, əlillik səbəbinə görə təhsildən, əlil uşaqlar isə pulsuz ibtidai və orta təhsildən kənarlaşdırılmasınlar, əlilliyi olan şəxslər öz yaşayış yerlərində digərləri ilə bərabər səviyyədə inklüziv, keyfiyyətli və pulsuz ibtidai və orta təhsil almaq imkanlarına malik olsunlar, fərdi tələbatı nəzərə alan vasitələrlə təchiz olunsunlar, əlilliyi olan şəxslər təhsil sistemində effektiv tədrisi yüngülləşdirmək üçün tələb olunan yardımı alsınlar, tam inklüzivliyi təmin etmək məqsədilə akademik və sosial inkişafı maksimum dərəcədə artıran mühitdə səmərəli fərdi dəstək tədbirlərini təmin etsinlər. Dövlətlər tərəfindən əlilliyi olan şəxslərin təhsil prosesində və gələcəkdə cəmiyyətin həyatında tam və bərabər iştirak etmələrini asanlaşdırır. Üzv dövlətlər bu öhdəliklərinin yerinə yetirilməsi istiqamətində addımlar atırlar və çalışırlar ki, milli qanunvericiliklərini də beynəlxalq hüquq normalarına uyğun formalaşdırsınlar.cəmiyyətin sosial, iqtisadi, mədəni həyatında fəal iştirak etmək həər bir şəxsin təbii hüququdur. Hətta fiziki imkanları məhdud şəxslərin cəmiyyətə inteqrasiya olunması üçün dövlətlər tərəfindən güzəştlər də olunmalıdır. Güzəştlərin həyata keçirilməsi diskriminasiya kimi anlaşılmamalıdır. Gərəkli hallarda evdən təhsil formasında həmin şəxslərin təhsilə cəlb olunmasına nail olunmalıdır.

"Əlilliyi olan şəxslərin hüquqları haqqında" beynəlxalq konvensiyaının tələblərinə əsasən, iştirakçı dövlətlər Brayl əlifbasının, alternativ şriftlərin, o cümlədən də ünsiyyətin alternativ metodlarının, üsullarının və formatlarının, eləcə də səmtləşmə və mobillik vərdişlərinin mənimsənilməsinə şərait yaratmaqla yanaşı, həmyaşıdlar tərəfindən dəstəklənməsi üçün şərait yaratmalı və işarət dilinin mənimsənilməsinə və eşitmə qabiliyyəti tam məhdud şəxslərin dil xüsusiyyətlərinin həvəsləndirilməsinə yön verməlidirlər. Həmçinin görmə, eşitmə və eşitmə-görmə qabiliyyətləri tam məhdud şəxslərin, xüsusilə 18 yaşınadək əlilliyi müəyyən edilmiş şəxslərin təhsilinin onlar üçün ən uyğun dil, metod və ünsiyyət üsulları ilə akademik və sosial inkişafı maksimum dərəcədə artıran mühitdə həyata keçirilməsini təmin etməlidirlər (6).

Dünyada rəsmi statistika olmasa da, 10 milyon tam görmə qabiliyyətini itirmiş şəxs və 130 milyona yaxın şəxslərin isə görmə qabiliyyətləri zəifdir. Həmin şəxslərin cəmiyyətə qazandırılması və dünyagörüşlərinin zənginləşdirilməsi məqsədilə konvensiyaya üzv dövlətlər öz öhdəliklərini yerinə yetirməlidirlər. BMT tərəfindən hər il 4 yanvar tarixi Brayl əlifbası günü kimi qeyd olunur. Brayl əlifbası qabarıq nöqtələrdən ibarət olan əlifbadır , hansı ki görmə qabiliyyəti olmayan və ya zəif olan şəxslər bu əlifbanın köməyi ilə toxunaraq informasiyalarla tanış ola və ya yaza bilirlər. Əlifbanın uşaqlara mənimsədilməsi vacib məsələrdəndir. Təhsil hüququn iştirakçı dövlətlər tərəfindən həyata keçirilməsini təmin etmək üçün müəllimlərin, eləcə də Brayl əlifbasını, işarət dilini bilən əlilliyi olan müəllimlərin bu işə cəlb olunması və tədrisin bütün səviyyələrində çalışan mütəxəssislərin və xidmət heyətinin təhsili üçün lazımi tədbirlər görülməlidir. Bu cür təlim, əlilliyi olan şəxslərə dəstək göstərilməsi istiqamətində əlilliklə bağlı

məlumatlılığı və ünsiyyətin müvafiq gücləndirici və alternativ metod, ünsiyyət üsulları və formatlarından, tədris metodikası və materiallardan istifadəni əhatə edir. İştirakçı dövlətlər əlilliyi olan şəxslərin ümumi ali təhsilə, peşəkar tədris prosesinə, böyüklər üçün təhsilə və bütün həyatı boyu tədrisə heç bir ayrı-seçkilik olmadan digər şəxslərlə bərabər səviyyədə cəlb olunmasını öhdələrinə götürürlər.

Azərbaycan Respublikasında təhsil dünyəvi və fasiləsiz xarakter daşımaqla, vətəndaşın, cəmiyyətin və dövlətin maraqlarını əks etdirən strateji əhəmiyyətli prioritet fəaliyyət sahəsidir. Təhsil həyata təsir edir və onu dəyişdirib, inkişaf etdirir. Azərbaycan Respublikasının təhsil sistemi dünyəvi xarakter daşıyır. Məhz bu amilə söykənərək dünyada təhsilə qlobal liderlik edən və dünya qisyasında təhsil sistemlərinin gücləndirilməsi üçün müasir qlobal çağırışlara cavab verən YUNESKO ilə aparılan danışıqlar bu prosesin əyani sübutudur. YUNESKO dövlət daxilində və dövlət xaricində təhsil müəsissələri üçün minimum təhsil standartların müəyyənləşdirilməsində başlıca yerə sahibdir (7).

Davamlı inkişaf və davamlı təhsil üçün başlıca investisiya insan amilidir. Qlobal ekoloji böhranın səbəblrini dərk etmək, antropogen ekoloji fəlakətin qarşısını almaq üçün müvafiq təhlillər aparmağa, problemin köklərini tapmağa malik təhsil və elm sahəsində intelektual və savadlı gənclərin yetişdirilməsi ilə təmin etmək mümkündür. BMT-nin "2030 Gündəliyinin" əsas 17 məqsədləri siyahısında 4-cu olan təhsil hüququ da önəmsələnilməli və davamlı dünya, davamlı inkişaf üçün göz önündə saxlanılmalıdır (8). Ölkə prezidenti İlham Əliyevin "Təhsil Azərbaycanın davamlı inkişaf strategiyasının ən öncül istiqamətlərindən biridir və biz maddi dəyərlərimizi, iqtisadi potensialımızı insan kapitalına çevirməliyik. Çünki insanın savadı, biliyi onun gələcək həyatını müəyyən edir, ölkənin hərtərəfli inkişafına xidmət edir".

Unutmaq olmaz ki, gələcək uşaqlarındır. Hazırda bütün sahələr üzrə eləcə də xüsusilə təhsil sahəsində atacağımız hər bir addım illər sonrakı yaşam tərzimizə və həyat keyfiyyətimizə təsir edəcək və onu formalaşdıracaq.

## Nəticə

Fərdlərin gücləndirilməsi, savadsızlığın aradan qaldırılması, insan kapitalına yatırımlar edilməsi, gələcək nəsillərin maarifləndirilməsi uşaq hüquqlarının məhənk daşını təşkil edir. Unutmaq olmaz ki, hər bir şəxs yaşından və fiziki fəaliyyət qabiliyyətindən asılı olmayaraq öz hüquqlarını realizə etməkdə sərbəst olmalı və bu kimi hüquqlarının dövlət tərəfindən dəstəklənildiyindən şübhə duymamalıdır.

## Ədəbiyyat

1. Azərbaycan Respublikasının Konstitusiyası. https://www.e-qanun.az/framework/897
2. Uşaq hüquqları haqqında Konvensiya. https://www.coe.int/az/web/compass/convention-on-the-rights-of-the-child
3. Əlilliyi olan şəxslərin hüquqları haqqında Konvensiya https://e-qanun.az/framework/15641
4. Sağlamlıq imkanları məhdud şəxslərin təhsili (xüsusi təhsili) haqqında Azərbaycan Respublikasının Qanunu https://e-qanun.az/framework/4353
5. Təhsil və YUNESKO https://www.unesco.org/en/education
6. Birləşmiş Millətlər Təşkilatının Davamlı inkişaf məqsədləri (2030 gündəliyi). https://sdgs.un.org/goals
7. Birləşmiş Millətlər Təşkilatının Nizamnaməsi. https://treaties.un.org/doc/publication/ctc/uncharter.pdf
8. Təhsil haqqında Azərbaycan Respublikasının Qanunu https://e-qanun.az/framework/18343

Göndərilib: 02.05.2023 Qəbul edilib: 20.06.2023